*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 208-215*

https://doi.org/10.62837/2026.4.208

**MANAFLI XANIMANA FƏTƏLİ QIZI**
**BDU, Zahid Xəlilov**
**Azərbaycan dilçiliyi kafedrası**
**xanimmanafli8@gmail.com**
**ORCID İD: 0009-0004-4261-3486**

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT DİLİMİZ UĞRUNDA MÜBARİZƏSİ

## XÜLASƏ

Dilin zaman-zaman hərtərəfli inkişaf etməsi və zənginləşib dolğunlaşması, tarixi şəxsiyyətlərin, qüdrətli dövlət başçılarının adı ilə də sıx bağlıdır. Ümummili lider Heydər Əliyev belə tarixi şəxsiyyət idi. Bu məqalədə Heydər Əliyevin Azərbaycan dilinin dövlət dili kimi formalaşması və möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi siyasət təhlil olunur. 1978-ci ildə ana dilinə dövlət dili statusunun verilməsi H.Əiyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri idi. Ulu öndər bununla gələcək müstəqil dövlətçiliyin milli zəminlərindən birini məharətlə qorumuşdu. Bu cəsarətli addım müstəqil bir ölkədə deyil, milli hüquq və azadlıqların məhdudlaşdırıldığı, milli köklərin unutdurulmağa çalışıldığı, sovet imperiyasına bağlı olan Azərbaycanda atılmışdı. Əlbəttə, H.Əliyevin ana dili məsələsində qəti mövqe tutması rus dilinin tam əleyhinə getməsi demək deyildi. O, yaxşı başa düşürdü ki, Sovet İttifaqı xalqlarının elmi, mədəni tərəqqisi, dünyaya çıxışı əsasən rus dili vasitəsilə həyata keçirilir. Dünyanın ən son elmi və mədəni nailiyyətləri ölkədə məhz ilk olaraq rus dilinə, sonra isə milli dillərə çevrilirdi. Buna görə də Ulu öndər azərbaycanlıların ikinci dil kimi rus dilini mükəmməl bilmələrinin qəti tərəfdarı kimi çıxış edirdi. Böyük rəhbər azərbaycanlıların yalnız ana dili çərçivəsində məhdudlaşıb qalmasının da əleyhinə idi.

Məqalədə göstərilir ki, Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunun təmin olunması, onun ictimai-siyasi və mədəni həyatda mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Ümumiyyətlə, Azərbaycan Respublikasında ana dilimizə qayğı göstərilməsi müdrik dövlət xadimi H.Əliyevin hakimiyyətə gəlməsindən sonra geniş vüsət almışdır. H.Əliyev nə şair idi, nə də dilçi alim, filoloq. Onun mötəşəmliyi, əzəməti natiqlik məharəti ilə üzə çıxdı. Ana dilinin zəngin söz ehtiyatından qidalanan bu dahi şəxsiyyət ilə dilimiz həm ölkəmizdə, həm də xaricdə diplomatik dil səviyyəsində ən yüksək zirvəyə çatdı. Müəyyən qədər unudulan, tarixin gizlinində xalqdan ayrı salınan milli ədəbiyyat və mədəniyyət nəhənglərinin üzə çıxarılması, bu yolla Azərbaycan dilinin böyük ədəbi yaddaşının bərpası, nəticədə dilin daxili enerjisinin min illər boyu yığılan potensialının oyadılması, hərəkətə gətirilməsi Heydər Əliyevin misilsiz xidmətlərindən biridir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 208-215*

**Açar sözlər: Azərbaycan dili, dövlət dili siyasəti, milli kimlik, normativ-hüquqi baza, dövlət dili statusu**

Dilin zaman-zaman hərtərəfli inkişaf etməsi və zənginləşib dolğunlaşması, tarixi şəxsiyyətlərin, qüdrətli dövlət başçılarının adı ilə də sıx bağlıdır. Ümummili lider Heydər Əliyev belə tarixi şəxsiyyət idi.

1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyası hazırlanarkən, respublikanın rəhbəri H.Əliyev Konstitusiyaya Azərbaycan SSR-in dövlət dilinin Azərbaycan dili olması ilə bağlı xüsusi maddə salınmasını tələb etdi. Bu cəsarətli addım müstəqil bir ölkədə deyil, milli hüquq və azadlıqların məhdudlaşdırıldığı, milli köklərin unutdurulmağa çalışıldığı, totalitar imperiyaya bağlı olan bir ölkədə, sovet respublikası olan Azərbaycanda atılırdı. Ulu öndər o gərgin mübarizəni və qələbəni belə xatırlayırdı: "Xatirimdədir, o vaxt başqa respublikaların rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda, gərək biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz, bunu yaza bilərsiniz. Siz nə üçün bizə mane olursunuz?Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə oldu".(11, s.196)

H.Əliyev L.Brejnevə problemi əhatəli, dərin məntiqi ilə əsaslandırır və bu məsələni Azərbaycan xalqının xeyrinə həll edir. Azərbaycan dilinin Konstitusiya layihəsində öz əksini tapması ilə yanaşı, bu layihənin 73-cü maddəsində yazılan, hüquqi cəhətdən SSRİ-nin federativ dövlətdən unitar dövlətə keçməsinə zəmin yaradan "SSRİ qanunları Azərbaycan SSR ərazisində məcburidir" maddəsi də layihədən çıxarılır. Ana dilinə dövlət dili statusunun verilməsi H.Əiyevin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biridir. Ulu öndər bununla gələcək müstəqil dövlətçiliyin milli zəminlərindən birini məharətlə qorumuşdur.

Əlbəttə, H.Əliyevin ana dili məsələsində qəti mövqe tutması rus dilinin tam əleyhinə getməsi demək deyildi. O, yaxşı başa düşürdü ki, Sovet İttifaqı xalqlarının elmi, mədəni tərəqqisi, dünyaya çıxışı əsasən rus dili vasitəsilə həyata keçirilir. Dünyanın ən son elmi və mədəni nailiyyətləri ölkədə məhz ilk olaraq rus dilinə, sonra isə milli dillərə çevrilirdi. Buna görə də Ulu öndər azərbaycanlıların ikinci dil kimi rus dilini mükəmməl bilmələrinin qəti tərəfdarı kimi çıxış edirdi. Böyük rəhbər azərbaycanlıların yalnız ana dili çərçivəsində məhdudlaşıb qalmasının da əleyhinə idi.

1978-ci il 14 aprel tarixində H.Əliyevin rəhbərliyi ilə Azərbaycan Kommunist Partiyası MK-nın iclasında respublikanın yeni himni müzakirə edilərkən məlum olur ki, himnin mətnində "respublika" sözü yoxdur. Müzakirə zamanı H.Əliyev "respublika" sözünün salınmasının vacibliyini söyləyir. Çıxış edən bəzi şəxslər himnin mətninə "respublika" sözünün salınmasını heç cür anlamadıqlarını deyirlər.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 4, 2026
Səh. 208-215

Respublikanın rəhbəri isə açıq və israrlı şəkildə bildirir:”Mən çox istərdim ki, “respublika” sözü mətndə olsun. Mənə deyirlər ki, heç cür alınmır. Mən hesab edirəm ki, bu sözün olmasına nail olmaq lazımdır. Biz Azərbaycan, dövlət, diyar haqqında danışırıq, amma bura respublikadır. Yaxşı olardı ki, burda “respublika” sözü olsun”. Təkidlərdən, məntiqi izahlardan sonra mətnə “respublika” sözü daxil edildi və bəyənilərək Azərbaycan Ali Soveti Rəyasət Heyəti tərəfindən təsdiq edildi. (10, s.112)

XX əsrin 70-ci illərinin əvvəllərindən mənəvi mühitin sağlamlaşdırılması istiqamətində başlanan iş müstəqillik illərində də davam etdirildi. Min illər boyu ulu babalarımızın arzusu, istəyi müstəqillik illərində həyata keçirildi. Şeyx Məhəmməd Xiyabani yazırdı: “Təkcə istəmək kifayət etməz, istəyi həyata keçirmək gərəkdir”. H.Əliyev ən çətin dövrlərdə belə uzun illər boyu sıxışdırılan dilimizin sabahına işıq salırdı.

1992-ci ilin dekabrında (o zaman H.Əliyev Azərbaycan Respublikasına rəhbərlik etmirdi) Milli Məclis Azərbaycanda Dövlət dilinin türk dili adlandırılması barədə qərar qəbul etdi. Orta məktəblər üçün ana dili dərslikləri “Türk dili” adı ilə nəşr edildi. H.Əliyev hakimiyyətə gələnə qədər, hətta bir qədər sonra da, yəni Azərbaycan dili Dövlət dili statusu alana qədər biz həmin dərsliklərdən istifadə etdik. Dilimiz gah Azərbaycan, gah türk dili adlandırılırdı.

1995-ci ilin oktyabrında Azərbaycan Milli Elmlər Akademiyasında dövlət dilimizin necə adlandırılması ilə bağlı ümumrespublika müzakirəsi keçirilir. Dilimizin müstəqil respublikamızda ilk dəfə qəbul ediləcək Konstitusiyamızda necə adlandırılması məsələsi gündəmə gətirilmişdi. Ölkənin çox tanınmış şairləri, yazıçıları, dilçiləri həmin müzakirədə iştirak edirdilər. Ulu öndər hər kəsə danışmaq, öz mülahizələrini ifadə etmək, təkliflər irəli sürmək imkanı vermişdi. Bəziləri dilimizin Azərbaycan dili (Z.Bünyadov, Y.Səmədoğlu), bəziləri Azərbaycan türk dili, Azərbaycan türkcəsi (B.Vahabzadə, Z.Yaqub, Anar) adlandırılmasını təklif edirdilər. H.Əliyev belə münasibət bildirmişdir:”Mən özün də axtarışdayam və heç bir kəsin də fikrinə təsir etmək istəmirəm. Ancaq gəlin bir az dərindən fikirləşək. Azərbaycan türkcəsi yazanda biz demək türkcənin bir ləhcəsiyik?... Mən etiraz etmirəm. Axı necə olsun? Dilimiz Azərbaycan türkcəsi, millətimiz Azərbaycan türkü? Bir millətin iki adı olsun? Mən bunu araşdırmamış bu böyüklükdə məsuliyyəti öz üzərimə götürə bilmərəm. Belə çıxır ki, biz həm dilimizin, həm də millətimizin adını yenidən qoymalıyıq. Biz gərək elə bir qərar qəbul edək ki, həm bu günümüzü, həm keçmişimizi əks etdirsin, həm də gələcəyimiz üçün, dövlətçiliyimiz üçün yararlı olsun.”(6, s.302)

Qızğın mübahisələrdən sonra 1995-ci il 12 noyabrda Heydər Əliyev Milli Məclisdə mübahisələrə yekun vurdu və bu məsələ Konstitusiyanın 21-ci maddəsində öz əksini tapdı.

Ümumiyyətlə, Azərbaycan Respublikasında ana dilimizə qayğı göstərilməsi müdrik dövlət xadimi H.Əliyevin hakimiyyətə gəlməsindən sonra geniş vüsət

almışdır. H.Əliyev nə şair idi, nə də dilçi alim, filoloq. Onun mötəşəmliyi, əzəməti natiqlik məharəti ilə üzə çıxdı. Ana dilinin zəngin söz ehtiyatından qidalanan bu dahi şəxsiyyət ilə dilimiz həm ölkəmizdə, həm də xaricdə diplomatik dil səviyyəsində ən yüksək zirvəyə çatdı.

Məşhur etnoqraf Lev Qumilyov etnosun qorunmasında dil ünsürünün ən vacib amil olduğunu qeyd edirdi. Bu konteksdə ümummilli lider H.Əliyevin Azəzrbaycan dilinin yaşaması və inkişafı uğrunda apardığı mübarizənin mahiyyətini dərk etmək o qədər də çətin deyil. Dil mədəniyyətinə münasibətdə Ulu Öndər deyir:"İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə sahibdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun vətəndaşlıq borcudur."(8, s.98)

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm." Bu sözləri o şəxs deyirdi ki, ən yüksək təhsilini də rus dilində almışdı, ruscanı rusdan yaxşı bilirdi. O, nitqində heç vaxt rus "aksent"ini hiss etdirmirdi. Amma çox Azərbaycan vətəndaşı var ki, hər hansı bir xarici dili öyrənən kimi dərhal bildiyi dilin aksentini hiss etdirməyə çalışır və öz ana dilində "dil çalağı" ilə danışır. Ulu Öndər məhz bu cür insanlara qarşı bir canlı nümunə, timsal, fakt, etalon kimi dayanırdı.

Ümummilli lider deyirdi: "Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini də yaxşı bilə bilməz...Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, C.Məmmədquluzadəni oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır. Ümidvaram ki, .... bizim gənclərimiz... doğma Azərbaycan dilimizi mənimsəyəcək və bunlar hamısı hər bir gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaradacaqdır."(3, s. 54)

Heydər Əliyevin dil siyasəti 70-ci illərin sonlarına doğru Azərbaycanda milli dil təfəkkürünün yüksəlməsinə o qədər böyük təsir göstərdi ki, bunu ancaq XVI əsrin əvvəllərindəki Şah İsmayıl Xətainin hakimiyyəti dövründəki, yaxud XX əsrin əvvəllərindəki vəziyyətlə müqayisə etmək olar. Müəyyən qədər unudulan, tarixin gizlinində xalqdan ayrı salınan milli ədəbiyyat və mədəniyyət nəhənglərinin üzə çıxarılması, bu yolla Azərbaycan dilinin böyük ədəbi yaddaşının bərpası nəticədə dilin daxili enerjisinin min illər boyu yığılan potensialının oyadılması, hərəkətə gətirilməsi Heydər Əliyevin misilsiz xidmətlərindən biridir. Bakıda, respublikanın digər şəhərlərində xalqın ədəbiyyat və mədəniyyət xadimlərinə ucaldılan çoxsaylı heykəllər həm də Azərbaycan dilinin uca şərəfini təsdiqləyən abidələr idi. Yubileylər vasitəsilə xalqa yenidən bütün böyüklüyü, əzəməti ilə olduğu kimi qaytarılan

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 208-215*

İmadəddin Nəsimilər, Molla Pənah Vaqiflər, Həsən bəy Zərdabilər və onların heykəlləri... 70-ci illərin sonlarında Heydər Əliyevin təşəbbüsü ilə dördcildlik "Müasir Azərbaycan dili" dərsliyinə Dövlət mükafatı verilməsi Azərbaycan dilinə böyük qayğının, əsl rəhbər diqqətinin nəticəsi idi.

Heydər Əliyev sənət adamlarının, yazıçı və şairlərin böyük dostu idi. 60-cı illərdə "Gülüstan" poemasına görə Bəxtiyar Vahabzadəni siyasi təqiblərdən qoruması, Xəlil Rza Ulutürkə, Məmməd Araza, digər Azərbaycan yazıçılarına, qayğı göstərməsi, neçə-neçə ustad sənətkarlarımıza SSRİ-nin ən böyük mükafatlarını, fəxri adlarını təqdim etməsi əslində ilk növbədə Azərbaycan dilinə, Azərbaycan ədəbiyyatına göstərilən böyük qayğının parlaq təzahürü idi.

"Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır". Dahi dövlət xadimi Heydər Əliyev bu müdrik sözləri ilə xalqımızı, müasir cəmiyyətimizi ayıq-sayıq olmağa, dünən, bu gün və sabah miqyasında düşünməyə, keçmişin ibrət dərslərini tam öyrənməklə gələcəyin qapılarını açmağa çağırır. O, bütün görüşlərdə, toplantılarda, eləcə də xarici səfərlərdə Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməz olduğunu vurğulayır, diqqəti bu əsas, taleyüklü məsələyə cəlb edir, milli-mənəvi dəyərlərimizin əsas xəzinəsi, canlı daşıyıcısı olan Azərbaycan dilinin bu baxımdan misilsiz örnək olduğunu söyləyir. Azərbaycançılıq istiqamətində bütövləşən Heydər Əliyev ideyaları bütünlükdə Azərbaycanın azadlığına, milli istiqlalına, dövlət müstəqilliyinə və bu azadlığın, istiqlalın, müstəqilliyin, suverenliyin əbədi və dönməzliyinə əsaslanır. Heydər Əliyev ideyalarının əsas, bütöv, son məqsədi, məramı Azərbaycanın əbədi azadlığıdır.

Qürur hissi ilə deyə bilərik ki, biz bir xalq, bir toplum kimi zamanın cürbəcür sınaqlarından keçərək dilimizi, milliliyimizi, mənəvi dəyərlərimizi qoruyub bu günümüzə qədər gətirib çıxarmışıq. Dərin tarixi kökləri olan öz dilimiz, öz mədəniyyətimiz, öz tariximiz var. 50 milyondan çox həmvətənimizin danışdığı bu dil dünyaya səs salan dahilər: ədiblər, alimlər, siyasətçilər yetişdirib. Bu dil ilə tanıtmışıq ədəbiyyatımızı, tariximizi, mədəniyyətimizi, kimliyimizi, bu dil ilə elan etmişik dünyaya müstəqilliyimizin əbədiliyini. Bu dil müqəddəsdir, doğmadır anamız kimi, Vətənimiz kimi. Qürurumuz, fəxrimiz olan ana dilimiz Nəsimilər, Füzulilər, Xətailər, Zərdabilər, Vaqiflər, Vidadilər, Sabirlər, Cəlillər, Ordubadilər dilidir. Xalqın tarixi kökləri, mədəni irsi, elmi təfəkkürü, ictimai inkişaf yolu məhz bu xəzinədə öz əksini tapır. Unutmayaq ki, torpaq fiziki varlığımızın vətəni olduğu kimi, ana dilimiz də mənəvi dünyamızın beşiyidir. Dilsiz xalq heç zaman öz keçmişini tanımaz, ulu əcdadları ilə fəxr edə bilməz. Ana dilimiz dövlət dilidir, dünyanın hər yerində bu dilə hörmət-ehtiram var. Himnimiz ana dilimizdə səslənir. Dünyada əlli milyondan artıq insan Azərbaycan dilində danışır. Bundan gözəl heç nə ola bilməz. Yaşa, ana dilim, dillər içində!

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 208-215*

## ƏDƏBİYYAT

1.Muradov Ş. Ulu öndər H.Əliyevin inkişaf strategiyasının təntənəsi. Bakı, Avropa, 2019, 594 səh.
2. Əkbərov B. Heydər Əliyev milli konstitusiyamızın yaradıcısı və banisidir. Bakı. 1998, 96 səh.
3. Əhmədova S. H.Əliyevin dil siyasəti, Bakı, 2010, 212 səh.
4. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı. Bakı, 2003, 504 səh.
5. Qurbanov S. Dünya və Azərbaycan siyasətində Heydər Əliyev kursu. Bakı, İZƏ, 2024, 400 səh.
6. Hüseynov R. İkinci olmayacaq. Bakı, Elm və təhsil, 2023, 1008 səh.
7. Mədədli E, Qafarov A. Heydər Əliyev: dövlətçilik, milli özünüdərk, mənəvi dəyərlər. Bakı, 2023, 252 səh.
8. Əhmədov E. Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti. Bakı, Zərdabi Nəşr, MMC, 200 səh.
9. Hasanov H. Karizmatik lider Parlak Şahsiyet Haydar Aliyev. İstanbul, Uluslararası Türk Akademisi, 2023, 208 səh.
10. Sərdarov M. Mahir siyasətçi, müdrik rəhbər:məqalələr və xatirələr. Bakı, Afpoliqraf, 2020, 222səh.
11. Hüseynova M. Missiya. Bakı, ADPU nəşriyyatı, 2019, 366 səh.
12. Nəsib Abid. Heydər Əliyevin müdrik kəlamlarından, İmza nəşrlər evi, 2025, 36 səh.

**ХАНЫМАНА МАНАФЛЫ**

## РЕЗЮМЕ
## БОРЬБА ГЕЙДАРА АЛИЕВА ЗА НАШ ГОСУДАРСТВЕННЫЙ ЯЗЫК

Всестороннее развитие языка и его постепенное обогащение тесно связаны также с именами исторических личностей и выдающихся государственных деятелей. Общенациональный лидер Гейдар Алиев был именно такой исторической личностью. В данной статье анализируется политика, проводимая Гейдаром Алиевым в направлении формирования и укрепления азербайджанского языка как государственного. Предоставление родному языку статуса государственного языка в 1978 году стало одной из величайших исторических заслуг Г. Алиева перед народом. Этим шагом великий лидер умело сохранил одну из национальных основ будущей независимой государственности. Этот смелый шаг был сделан не в независимом государстве, а в Азербайджане, входившем в состав советской империи, где национальные права и свободы были ограничены, а национальные корни пытались предать забвению.

Безусловно, твёрдая позиция Г. Алиева по вопросу родного языка не означала полного отрицания русского языка. Он прекрасно понимал, что научный и культурный прогресс народов Советского Союза, а также их выход в мир в основном осуществлялись посредством русского языка. Новейшие научные и культурные достижения мира сначала переводились на русский язык, а затем — на национальные языки. Поэтому великий лидер выступал убеждённым сторонником того, чтобы азербайджанцы в совершенстве владели русским языком как вторым. В то же время он был против того, чтобы азербайджанцы ограничивались только рамками родного языка.

В статье отмечается, что в период руководства Гейдара Алиева были предприняты важные шаги по обеспечению юридического статуса азербайджанского языка как государственного, а также по укреплению его позиций в общественно-политической и культурной жизни. В целом, забота о родном языке в Азербайджанской Республике приобрела широкий размах после прихода к власти этого мудрого государственного деятеля. Г. Алиев не был ни поэтом, ни учёным-лингвистом или филологом. Его величие проявилось в его ораторском мастерстве. Благодаря этой гениальной личности, питающейся богатым словарным запасом родного языка, азербайджанский язык достиг высочайшего уровня как внутри страны, так и за её пределами — на уровне дипломатического языка.Возвращение к жизни национальных гигантов литературы и культуры, в определённой степени забытых и оторванных от народа, восстановление богатой литературной памяти азербайджанского языка и, как следствие, пробуждение и приведение в движение его внутреннего потенциала, накапливавшегося тысячелетиями, является одной из выдающихся заслуг Гейдара Алиева.

**Ключевые слова:** азербайджанский язык, языковая политика государства, национальная идентичность, нормативно-правовая база, статус государственного языка

**Khanimana F.Manafli**

## SUMMARY
## HEYDAR ALIYEV'S STRUGGLE FOR OUR STATE LANGUAGE

The comprehensive development and enrichment of a language over time are closely connected with the names of historical figures and powerful state leaders. The national leader Heydar Aliyev was such a historical figure. This article analyzes the policy implemented by Heydar Aliyev aimed at the formation and strengthening of the Azerbaijani language as a state language. Granting the native language the status of a state language in 1978 was one of Aliyev's greatest historical services to the nation. Through this step, the great leader skillfully preserved one of the national

foundations of future independent statehood. This courageous decision was made not in an independent country, but in Soviet Azerbaijan, where national rights and freedoms were restricted and efforts were made to erase national identity.

Certainly, Aliyev's firm stance on the native language did not mean a complete opposition to the Russian language. He clearly understood that the scientific and cultural progress of the peoples of the Soviet Union, as well as their access to the wider world, were largely carried out through the Russian language. The latest global scientific and cultural achievements were first translated into Russian and only then into national languages. Therefore, the great leader strongly supported Azerbaijanis mastering Russian as a second language. At the same time, he opposed limiting Azerbaijanis solely to their native language.

The article shows that during Heydar Aliyev's leadership, significant steps were taken to ensure the legal status of the Azerbaijani language as a state language and to strengthen its role in socio-political and cultural life. In general, special attention to the native language in the Republic of Azerbaijan gained broad scope after this wise statesman came to power. Aliyev was neither a poet nor a linguist or philologist. His greatness manifested itself in his oratory skills. Nourished by the rich vocabulary of the native language, this genius elevated Azerbaijani to the highest level both domestically and internationally, including as a language of diplomacy.

The revival of prominent figures of national literature and culture—who had been somewhat forgotten and distanced from the people—the restoration of the rich literary memory of the Azerbaijani language, and consequently, the awakening and activation of its inner potential accumulated over centuries, are among Heydar Aliyev's unparalleled contributions.

**Keywords:** Azerbaijani language, state language policy, national identity, legal framework, state language status

**Rəyçi: professor Tofiq Hacıyev**